## Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12; 2001, № 12, maddələr 731, 736; 2004, № 2, maddə 57; 2005, № 4, maddə 274, № 7, maddə 590; 2006, № 11, maddə 926; 2007, № 1, maddə 1, № 8, maddə 756, № 11, maddə 1078; 2008, № 3, maddə 155, № 8, maddələr 694, 696; 2009, № 6, maddələr 399, 406; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddə 273, № 7, maddə 599; 2011, № 2, maddə 71; 2012, № 11, maddə 1041; 2013, № 2, maddə 93) ilə təsdiq edilmiş «Gömrük orqanlarında xidmət haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

1. 115-ci maddədə «üç ildə bir dəfədən çox olmayaraq» sözləri «beş ildə bir dəfədən çox olmayaraq» sözləri ilə əvəz edilsin.

2. 115-ci maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü hissələr əlavə edilsin:

«Attestasiya olunan gömrük orqanının vəzifəli şəxslərinə onların xidməti fəaliyyətinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onların siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

Attestasiyanın nəticələri (qiymət və tövsiyələr), habelə attestasiya zamanı verilən suallar və cavablar 1 (bir) nüsxədə tərtib edilən, sədr, katib və attestasiya komissiyasının səsvermədə iştirak etmiş digər üzvləri tərəfindən imzalanan attestasiya vərəqəsinə yazılır.».

3. 119-cu maddənin ikinci hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

«Attestasiya komissiyası gömrük orqanının vəzifəli şəxsinin tutduğu vəzifəyə uyğun gəldiyi və ya uyğun gəlmədiyi, habelə işini yaxşılaşdırsa və komissiyanın tövsiyələrini yerinə yetirsə, 1 (bir) ildən sonra təkrar attestasiyadan keçmək şərtilə tutduğu vəzifəyə uyğun gəldiyi haqqında 3 (üç) qiymətdən yalnız birini verir.».

4. 119-cu maddənin birinci hissəsində «qərar qəbul edir» sözləri «qiymət verir» sözləri ilə, ikinci hissənin ikinci cümləsində və 120-ci maddənin birinci hissəsinin 7-ci bəndində isə ismin müvafiq hallarında verilmiş «qərar» sözü ismin müvafiq hallarında «qiymət» sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**

**İlham ƏLİYEV**

**Bakı şəhəri, 29 dekabr 2015-ci il**

**№ 79-VQD**